AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT STATİSTİKA ORQANLARININ NORMALAR MƏCƏLLƏSİ

BAKI – 2011

*Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında*
*Statistika Şurasının*
*25 noyabr 2011-ci il tarixli iclasında təsdiq edilmişdir*

# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT STATİSTİKA ORQANLARININ NORMALAR MƏCƏLLƏSİ

**BAKI – 2011**

## Azərbaycan Respublikası Dövlət Statistika orqanlarının Normalar Məcəlləsi

Azərbaycan Respublikası Dövlət Statistika orqanlarının fəaliyyət prinsipləri - müstəqillik, qərəzsizlik, obyektivlik, düzgünlük və statistik konfidensiallıq (məxfilik) əsasında rəsmi statistika məlumatlarının işlənməsi və yayılması sahəsində dövlət və cəmiyyətə zəmanət verən standartlar toplusudur.

Dövlət statistika orqanlarının fəaliyyət prinsipləri Komitə tərəfindən 2005-ci il fevralın 24-də təsdiq olunmuş Avropa statistikasının fəaliyyət Məcəlləsinə uyğunlaşdırılmış, 1994-cü ildə BMT-nin Statistika Komissiyası tərəfindən bəyənilmiş rəsmi statistikanın Əsas prinsiplərinə əsaslanır və 2009-cu ilin dəyişiklikləri nəzərə alınmaqla, 1985-ci ildə Beynəlxalq Statistika İnstitutu tərəfindən qəbul edilmiş peşəkar etika Bəyanatının prinsiplərinə uyğundur.

Normalar Məcəlləsinin əsası 18 prinsipdən ibarətdir. Azərbaycanın statistika orqanları öhdələrinə götürürlər ki, idarəçiliyi, statistik prosesləri və yekun statistik məlumatları əhatə edən bu Məcəllədə təsbit edilmiş prinsiplərə riayət etsinlər. 18 prinsipin hər biri üzrə qabaqcıl təcrübənin göstəricilər (indikatorlar) toplusu Məcəllənin yerinə yetirilməsinin yoxlanılması üçün əsas hesab edilir.

**I. İnstitusional quruluş (idarəçilik sahəsi).**

(Dövlət statistika orqanlarının idarə edilməsinin ümumi prinsipləri).

Rəsmi statistikasını inkişaf etdirən, məlumatları istehsal edən və yayan statistika orqanlarının işinin səmərəliliyinə və məlumatlarının doğruluğuna peşəkar müstəqillik, məlumatların toplanması üçün səlahiyyətlərin mövcudluğu, kifayət qədər ehtiyatların mövcudluğu, keyfiyyətin təmin edilməsi üzrə öhdəçilik, statistik konfidensiallıq, qərəzsizlik və obyektivlik kimi idarəçilik və təşkilati amillər əhəmiyyətli dərəcədə təsir göstərir.

**1-ci prinsip: Peşə müstəqilliyi** - dövlət statistika orqanlarının peşə müstəqilliyinə "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsində zəmanət verilir. Bu maddədə deyilir: "Dövlət və qeyri-hökumət təşkilatlarının dövlət statistika orqanlarının səlahiyyətlərinin həyata keçirilməsinə müdaxiləsi yolverilməzdir və onların öz xidməti vəzifələrinin yerinə yetirilməsində təsir göstərmirlər".

**Göstəricilər:**

1.1. Proqramın həyata keçirilməsi, xüsusən də məlumat mənbələrinin statistik metodların seçilməsi və məlumatların yayılması prosesi, onun məzmunu, forması, vaxtı və statistik məlumatların məxfiliyinin təmin olunması zamanı dövlət statistika orqanları müstəqildirlər və kənar təşkilatlardan bu işlərə dair göstəriş və təlimatlar qəbul etmirlər.

1.2. Statistika sahəsində Dövlətstatkomun rəhbərinin vəzifəsinə olan tələblər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuşdur və Avropa statistikasının fəaliyyət Məcəlləsinin 1-ci prinsipinin 1.2. bəndinin tələblərinə uyğundur.

1.3. Statistika orqanları statistik vahidlərdən yığılmış məlumatlar əsasında ölkə və regionlar üzrə ümumiləşdirilmiş və qruplaşdırılmış nəticələri tərtib edir statistik məcmuələr, bülletenlər, icmallar, mətbu buraxılışlar və digər statistik materialları hazırlayıb nəşr edir, onları istifadəçilər arasında yayır, ictimaiyyətdə maraq doğuran icmal statistik məlumatları mətbuatda dərc etdirir və bu işlərin həyata keçirilməsində müstəqildirlər.

1.4. Statistika orqanlarının hazırladıqları statistik nəşrlər dövlət statistika orqanlarının məhsulları kimi dəqiq göstərilir, digər dövlət hakimiyyəti orqanlarının, dövlət idarəetmə orqanlarının nəşrlərindən fərqlənir.

1.5. Mövcud ehtiyatlar, respondentlərə düşən yük və onun dəyəri nəzərə alınmaqla, Azərbaycan Respublikasının iqtisadi, demoqrafik, sosial və ekoloji sahələrinin vəziyyətinin öyrənilməsi ilə bağlı təşkil edilən statistik müşahidələr əsasında əldə olunan məlumatlar, məlumatların əldə olunması üçün hər bir elementin əhatəliliyi, növ, dövrilik və mövzu əlamətləri, habelə statistik məlumatların hazırlanması texnologiyası, metodların və standartların istifadəsi, onların saxlanması və yayılması vaxtları haqqında qərar Dövlətstatkomun elmi-metodoloji şurasının təqdimatı əsasında Dövlət Statistika Komitəsinin rəhbəri tərəfindən verilir.

1.6. Dövlət Statistika Komitəsi öz fəaliyyətini Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılaraq Komitənin kollegiyası tərəfindən təsdiq olunan illik "Statistik işlər proqramı" və ölkə Prezidenti tərəfindən təsdiq olunan uzunmüddətli inkişaf proqramı əsasında həyata keçirir. Proqramlar dərc edilir, proqramların yerinə yetirilməsi haqqında hesabatlar hazırlanır və Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsində yerləşdirilir və nəşr edilir.

1.7. Dövlət Statistika Komitəsi rəsmi statistikanın əhəmiyyətinin ictimaiyyətə çatdırılmasını təşkil edir və istifadəçilər tərəfindən statistik nəticələrin səhv şərh edilməsi hallarının qarşısının alınması məqsədilə onlara izahlar verir, kütləvi informasiya vasitələrində çıxışlar edir.

**2-ci prinsip: <u>Məlumatların toplanması üzrə səlahiyyət</u>** - statistik məlumatların toplanması məqsədilə məlumatların alınması üçün dövlət statistika orqanları qanunvericiliklə müəyyən olunmuş səlahiyyətə malikdir. Azərbaycan Respublikasının ərazisində yerləşən bütün hüquqi şəxslər (onların nümayəndəlik və filialları) və fiziki şəxslər dövlət (region) müşahidələrinin aparılması üçün lazım olan məlumatları müəyyən edilmiş həcmdə və müddətdə haqqı ödənilmədən kağız və ya elektron sənəd formasında dövlət statistika orqanlarına təqdim etməyə borcludurlar. İnzibati məlumatların istehsalını öhdəsinə götürmüş, müvafiq icra hakimiyyəti orqanları rəsmi statistika ilə məşğul olan orqana onun müəyyən etdiyi vaxtlarda və həcmdə hesabat təqdim edirlər.

**Göstəricilər:**

2.1. Statistik məlumatların toplanması, işlənməsi, təhlili, yayılması, saxlanması, qorunması və istifadəsi üzrə dövlət statistika orqanlarının səlahiyyəti qanunvericiliklə müəyyən olunmuşdur.

2.2. Statistik məqsədlər üçün dövlət statistika orqanları tərəfindən inzibati məlumatların alınması və istifadəsi qaydaları qanunvericilikdə müəyyən olunmuşdur.

2.3. Dövlət statistika orqanları qanunvericiliklə respondentlərin statistika müşahidələrində məcburi iştirakını tələb edə bilər.

**3-cü prinsip: <u>Ehtiyatların kifayətliliyi</u>** - dövlət statistika orqanlarına verilən və ya onların sərəncamında olan ehtiyatlar statistikanın tələblərini ödəmək üçün kifayət qədər olmalıdır.

**Göstəricilər:**

3.1. Cari statistik tələblər mövcud əmək, maliyyə ehtiyatları və məlumatlandırma vasitələri ilə tam təmin edilmişdir.

3.2. Statistik məlumatların toplanmasına ayrılan xərclər, təfsilat və əhatəsi onun tələblərinə cavab verir.

3.3.Tələb olunan xərclərə uyğun olaraq yeni statistik məlumatların işlənməsinin qiymətləndirilməsi qaydaları və sifarişlərin əsaslandırılması müəyyənləşdirilmişdir.

3.4. Ümumilikdə, statistik məlumatlara cari tələbatın qiymətləndirilməsi üsulları mövcuddur ki, bu da lazım gəldikdə ehtiyatlara qənaət olunması üçün müəyyən statistik məlumatların toplanmasının dayandırılması və ya ixtisara salınmasına imkan verir.

**4-cü prinsip: <u>Keyfiyyətin təmin edilməsi üzrə öhdəçilik</u>** - dövlət statistika orqanları Avropa statistika sisteminin (bundan sonra ASS adlanacaq) keyfiyyət Bəyanatında qoyulmuş prinsiplərə uyğun olaraq fəaliyyət göstərməyi öhdəsinə götürmüşdür. Statistika orqanları keyfiyyətli məlumatlar istehsal etməlidirlər.

**Göstəricilər:**

4.1. ASS-nin keyfiyyət əlamətlərinə uyğun olaraq statistik məlumatların keyfiyyətinin daimi monitorinqi aparılır, hesabatlar və icmallar hazırlanır və nəsr edilir.

4.2. Statistik məlumatların toplanması, işlənməsi və yayılmasının keyfiyyətinə nəzarət üçün prosedur qaydaları işlənmiş və tətbiq edilir.

4.3. Cari və gələcək statistik müşahidələrin planlaşdırılmasının idarə olunması üzrə tədbirlər və keyfiyyət üzrə qarşılıqlı razılaşma da daxil edilməklə keyfiyyət göstəricilərinin istifadə edilməsi prosedurları işlənmişdir və tətbiq edilir.

4.4. Statistik məlumatların keyfiyyətinə dair metodoloji/metodiki sənədlər hazırlanmış və geniş ictimaiyyətə təqdim olunmuşdur. Bu məsələ ilə bağlı yaxşı təcrübə əldə edilmişdir.

4.5. Statistik məhsulların keyfiyyəti keyfiyyət meyarlarına əsasən yoxlanılır və qiymətləndirilir.

**5-ci prinsip: <u>Statistik məlumatların konfidensiallığı</u>** - dövlət statistika orqanları respondentlərdən alınmış ilkin statistik məlumatların, həmçinin, statistik məqsədlər üçün istifadə edilən inzibati məlumatların və ayrı-ayrı respondentlər haqqında fərdi məlumatların konfidensiallığına zəmanət verir.

**Göstəricilər:**

5.1. Statistik məlumatların konfidensiallığına qanunvericiliklə zəmanət verilir.

5.2. Statistik məqsədlər üçün yığılan ilkin məlumatlar başqa məqsədlər üçün istifadə oluna bilməz.

5.3. Dövlət statistika orqanlarının mütəxəssisləri vəzifəyə təyin olunduqda ilkin (fərdi) statistik məlumatların konfidensiallığının qorunması haqda sənəd (öhdəlik) imzalayırlar.

5.4. Konfidensial statistik məlumatların istifadə edilməsi qaydalarının pozulmasına görə fiziki və vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

5.5. Geniş ictimaiyyət üçün nəşr edilən məlumatların toplaması, işlənməsi, təhlili, yayılması, saxlanması və istifadə edilməsi zamanı konfidensial statistik məlumatların qorunması üzrə metodoloji/metodiki sənədlər hazırlanmışdır.

5.6. Statistik məlumatların qorunması üçün texniki və təşkilati tədbirlər tətbiq edilir.

5.7. Elmi-tədqiqat məqsədləri üçün statistik mikro göstəricilərdən kənar istifadəçilərin istifadə qaydaları hazırlanmışdır.

5.8. Xidməti vəzifələrinə görə statistik sirr sayılan məlumatlarla tanış olmaq icazəsi olan şəxslər xidməti vəzifələrinə xitam verildikdən sonra da bu məlumatların yayılmasına görə Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**6-cı prinsip: <u>Obyektivlik və qərəzsizlik</u>** - dövlət statistika orqanları statistik məlumatları elmi metodologiya əsasında qərəzsiz, obyektiv, peşəkar, açıq şəkildə toplayır, yayır və bütün istifadəçilərin statistik məlumatlarla eyni vaxtda tanış olmasını təmin edirlər. Dövlət Statistika Komitəsi açıq olan statistik məlumatların yayılmasına təminat verir və bütün istifadəçilər məlumatların yayılmasına dair rəsmi statistika proqramında nəzərdə tutulmuş vahid qayda və hüquqi normalar çərçivəsində statistika materiallarını əldə edirlər.

**Göstəricilər:**

6.1. Statistik məlumatların toplanması üçün mənbə və metodların seçilməsi elmi əsaslandırılmış statistik metodologiya ilə müəyyən olunur.

6.2. Statistik məlumatların yayılmasında aşkar edilmiş səhvlər dərhal yoxlanılır və düzəlişlər dərc edilir.

6.3. Statistik məlumatların toplanması, işlənməsi, təhlili, yayılması, saxlanması və istifadə edilməsi zamanı dövlət statistika orqanları tərəfindən qəbul edilmiş metod və üsullar haqqında məlumat, həmçinin onların iş reqlamenti haqqında məlumat nəşr edilir və geniş ictimaiyyətin həmin məlumatlarla tanış olması təmin edilir.

6.4. Statistik məlumatların nəşr edilməsi vaxtı və tarixi haqqında məlumat əvvəlcədən elan edilir.

6.5. Bütün istifadəçilər statistik məlumatlarla eyni vaxtda və bərabər tanış olur, müəyyən güzəştlərə malik kənar istifadəçilərin məlumatlarla vaxtından əvvəl tanış olmasına məhdudiyyət qoyulur, nəzarət olunur və elan edilir. Məlumatlar vaxtından tez elan edilərsə, qərəzsizliyə yol verməmək üçün məlumatlara giriş prosedurasına yenidən baxılır.

6.6. Mətbuat konfranslarında verilən statistik məlumatlar və bəyanatlar obyektiv və qərəzsiz xarakterə malik olur.

**7-ci prinsip: <u>Peşəkar etikanın və fəaliyyətin idarə edilməsi</u>** - dövlət statistika orqanlarının fəaliyyəti məntiqli və ardıcıl qaydalarla tənzimlənmişdir. Dövlət statistika orqanları işçilərinin etik normaları və mənəvi hüquqları müvafiq normativ sənədlərlə müəyyən edilmişdir və ona riayət olunur.

**Göstəricilər:**

7.1. Dövlət statistika orqanları bütün növ statistik fəaliyyətlərə məntiqi ardıcıl proses kimi baxır.

7.2. Dövlət statistika orqanları işçilərinin peşəkar etika qaydaları statistik məlumatların

istehsal və yayılması zamanı istifadəçilərin tələbatına hörmətlə yanaşmaq, respondentlərlə və inzibati məlumatların sərəncamçıları digər statistik məlumat istehsalçıları ilə tərəfdaşlıq münasibətləri peşəkar bacarıq elmi obyektivlik, qərəzsizlik, məxfiliyin qorunması hallarını nəzərdə tutur.

7.3. Dövlət statistika orqanları işçilərinin davranış mədəniyyəti eləcə də statistik proseslərin şəffaflığı müəyyən qaydalarda əks olunur. Şəffaflıq dəyişikliklər haqqında ilkin məlumatlar da daxil olmaqla, statistik proseslərin vəziyyəti və şərtlərinə dair məlumatların yayılmasını nəzərdə tutur.

7.4. Dövlət statistika orqanlarının işçilərinin proseslərin idarə edilməsi və peşəkar etikası haqqında metodoloji/metodiki sənədlər hazırlanaraq geniş ictimaiyyətə çatdırılmışdır və əldə oluna biləndir.

**8-ci prinsip: Fəaliyyətin səmərəliliyi** - dövlət statistika orqanlarının fəaliyyətinin səmərəliliyi onların nəzərdə tutulmuş məqsədlərə nail olunma səviyyəsi ilə xarakterizə olunur.

**Göstəricilər:**

8.1. Dövlət statistika orqanları öz fəaliyyətlərinin nəticələrinin bu fəaliyyətdə iştirak edən subyektlərin razı qalma səviyyəsinin qiymətləndirilməsini həyata keçirir. Bunlardan əlavə, dövlət statistika orqanları öz fəaliyyətlərini özünüqiymətləndirmə qaydaları çərçivəsində müəyyənləşdirilmiş göstəricilər üzrə, o cümlədən dövlət statistikasının uzunmüddətli inkişaf proqramlarının tədbirlərinin yerinə yetirilməsini, keyfiyyətin idarə edilməsi sisteminin işləməsini və s. əks etdirən göstəricilər üzrə qiymətləndirilməsini aparır.

8.2. Dövlət statistika orqanlarının fəaliyyətinin nəticələrinin təhlili və səmərəli qərarların qəbul edilməsi yalnız dəqiq məlumatlar əsasında həyata keçirilir.

8.3. Dövlət statistika orqanları öz fəaliyyətinin nəticələri haqqında hesabatlar hazırlayırlar.

**9-cu prinsip: Daimi təkmilləşmə** - dövlət statistika orqanları monitorinq və audit məlumatlarının təhlili əsasında rəsmi statistikanın uzunmüddətli inkişaf proqramına uyğun olaraq öz fəaliyyətini daim təkmilləşdirirlər.

**Göstəricilər:**

9.1. Müntəzəm olaraq fəaliyyətin monitorinqi və əldə olunmuş nəticələrin özünüqiymətləndirməsi həyata keçirilir. Daxili zəruriyyət olduğu hallarda isə xarici auditlər aparılır.

9.2. Müntəzəm olaraq rəsmi statistikanın uzunmüddətli inkişaf proqramına həmçinin dövlət statistika orqanlarının vəzifə və funksiyalarına yenidən baxılması barədə təkliflər verilir.

9.3. Dövlət statistika orqanlarının fəaliyyətinin yaxşılaşdırılmasının prioritet istiqamətləri müəyyənləşdirilir.

## II). Statistik proseslər (Statistik proseslərin aparılması prinsipləri).

Azərbaycanda rəsmi statistikanın təşkili, məlumatların toplanması, işlənməsi və yayılması proseslərində statistika orqanları Avropa və digər beynəlxalq standartlara, normativlərə və qabaqcıl təcrübənin prinsiplərinə bütövlükdə riayət etməyə borcludurlar. Statistik məlumatlara inam idarəetmənin və səmərəliliyin məntiqəuyğunluğu sayəsində artır. Əsas baxışlar

metodologiyanın əsaslılığı, statistik üsulların əsaslandırılması, respondentlərə düşən yükün azaldılması və qənaətcilik hesab edilir.

**10-cu prinsip: Statistik metodologiyaların əsaslılığı** - beynəlxalq standartlara və tövsiyələrə əsaslanan müasir və elmi əsaslandırılmış statistik metodologiya keyfiyyətli statistik məlumatların tərtib olunmasının əsası hesab edilir və müvafiq vasitə, üsul, qayda, metod və təcrübənin mövcudluğunu tələb edir.

**Göstəricilər:**

10.1. Dövlət statistika orqanları tərəfindən qəbul edilmiş ümumi metodoloji yanaşma Avropa və digər beynəlxalq standartlara, tövsiyələrə və prinsiplərə, həmçinin müasir statistik təcrübənin ən yüksək nailiyyətlərinə uyğundur.

10.2. Dövlət statistika orqanlarında razılaşdırılmış standart konsepsiyalar, anlayışlar və təsnifatların istifadəsinə zəmanət verən üsullar tətbiq edilir.

10.3. Statistik vahidlərin dövlət registrinin məlumatları və əhalinin (ev təsərrüfatının) seçmə müayinəsinin aparılması üçün seçmələrin əsasları müntəzəm olaraq aktuallaşdırılır, zəruri hallarda onların yüksək keyfiyyətini təmin etmək məqsədilə dəqiqləşdirilir.

10.4. Milli təsnifat sistemləri müvafiq Avropa təsnifatlarının detallaşdırılmış səviyyəsi ilə uzlaşdırılmışdır.

10.5. Dövlət statistika orqanları işçilərinin ştatı müvafiq təhsilli mütəxəssislərlə komplektləşdirilir.

10.6. Ən yaxşı təcrübənin öyrənilməsi və bilik səviyyələrinin yüksəldilməsi məqsədilə dövlət statistika orqanlarının mütəxəssisləri beynəlxalq konfranslarda, tədris kurslarında və s. iştirak edir, beynəlxalq səviyyədə öz həmkarları ilə əməkdaşlıq edirlər.

10.7. Statistika orqanları öz işçiləri üçün davamlı peşə təhsili üzrə təlimlər həyata keçirir.

10.8. Metodologiyaların təkmilləşdirilməsi dövlət statistika orqanlarının digər mərkəzi icra hakimiyyəti orqanları və elmi-tədqiqat müəssisələri ilə əməkdaşlıq etməsi əsasında həyata keçirilir. Xarici ekspertlər tərəfindən metodların keyfiyyət və səmərəliliyi qiymətləndirilir, zəruri hallarda isə daha yaxşı metodologiyaların tətbiq edilməsi üzrə tövsiyələr verilir.

**11-ci prinsip: Statistik üsulların uyğunluğu** - statistik üsullar məlumatların toplanmasından başlayan və onların son qiymətləndirilməsi ilə başa çatan keyfiyyətli statistik məlumatların yaradılması üçün əsas meyardır.

**Göstəricilər:**

11.1. İnzibati mənbələrin məlumatlarından, anlayış və konsepsiyalarından dövlət statistika orqanları tərəfindən istifadə edildikdə, onlar əhəmiyyətli dərəcədə statistik metodologiyaya uyğunlaşdırılır.

11.2. İnzibati məlumatların dəqiqliyi və statistik məqsədlər üçün qəbul edilmə ehtimalı, yekun statistik göstəricilərin digər mənbələrdən daxil olmuş statistik göstəricilərlə müqayisəsi və onların müqayisəliliyi və uyğunluğu qiymətləndirilir.

11.3. Rəsmi statistik müşahidə formalarına yenidən baxılması müntəzəm olaraq həyata keçirilir. Yeni statistik müşahidənin keçirilməsindən əvvəl müvafiq statistik-hesabat sənədləri yoxlanılır və sınaqdan keçirilir.

11.4. Seçmənin dizaynı əsaslandırılır, mütəmadi olaraq yenidən baxılır, zərurət olduqda

yeniləşdirilir və aktuallaşdırılır.

11.5. Məlumatların toplanması, kompyuterlərə daxil edilməsi və onların kodlaşdırılması üzrə işlərin yerinə yetirilməsinin daimi monitorinqi həyata keçirilir və lazım gəldikdə yenidən baxılır.

11.6. Məlumatların təshihi və imputasiyası üzrə müvafiq metodika və proqram təminatı tətbiq olunur, onlar müntəzəm yoxlanır və lazım olduqda təshih edilir və yeniləşdirilir.

11.7. Səhvlərin və uyğunsuzluqların düzəldilməsi standartlara və şəffaf qaydalara uyğun aparılır.

**12-ci prinsip:** **Statistik fəaliyyətin həyata keçirilməsində tərəfdaşlıq əlaqələri** (Respondentlərə düşən yükün azaldılması) - dövlət statistika orqanlarının statistik məlumatların tərtib edilməsində statistik məlumatların digər istehsalçıları ilə, inzibati məlumatları təqdim edənlərlə (göndərənlərlə), dövlət statistika müşahidələrinin respondentləri ilə, beynəlxalq təşkilatlarla və digər ölkələrin statistika xidmətləri ilə əməkdaşlığı qarşılıqlı hörmət, məlumatların mütəşəkkil qarşılıqlı mübadiləsi və dövlət statistika fəaliyyətinin həyata keçirilməsinə xərclərin optimallaşdırılması prinsiplərinə əsaslanır. Respondentlərə düşən yükün azaldılmasını nəzərdə tutur.

**Göstəricilər:**

12.1. Milli statistika sorğularının həcmi və təfsilatı tam zəruri məlumatların əldə olunması ilə məhdudlaşdırılmışdır.

12.2. Respondentlərə düşən hesabat yükünün ölçülməsi və azaldılması üçün tədbirlər həyata keçirilir.

12.3. Müvafiq seçmə metodlarının tətbiqi nəticəsində respondentlərin dairəsi geniş məcmunu əhatə edir.

12.4. Respondentlərdən məlumatların alınması üsullarını sadələşdirmək məqsədilə məlumatların əldə olunması üçün mümkün olan uçot sənədlərindən və məlumatların ötürülməsinin elektron vasitələrindən mümkün qədər geniş istifadə olunur.

12.5. Dəqiq və ətraflı məlumatlar olmadıqda, onların qiymətləndirilməsi üçün ən yaxşı metodlar tətbiq olunur.

12.6. İnzibati məlumatların toplanması və istifadəsi ilə əlaqəli fəaliyyət həyata keçirən orqanlarla məlumat resurslarının qarşılıqlı mübadiləsini genişləndirmək üçün tədbirlər görülür.

12.7. Dövlət statistika fəaliyyətinin həyata keçirilməsində dövlət statistika orqanlarının tərəfdaşı olan orqanların fəaliyyətlərinin, xüsusən də təkrarlanmanın qarşısının alınması, zərurət yarandıqda məlumatların birgə istifadəsi də daxil olmaqla, dövlət statistikasının uzunmüddətli inkişaf proqramlarının hazırlanması əlaqələndirilmiş şəkildə həyata keçirilir.

12.8. Hərtərəfli və obyektiv statistik məlumatın əldə edilməsi, həmçinin statistik metodologiyanın təkmilləşdirilməsi məqsədilə, beynəlxalq təşkilatlar və digər ölkələrin statistik xidmətləri ilə əməkdaşlığın təşkili, xüsusən də məlumatların qarşılıqlı mübadiləsi üçün tədbirlər həyata keçirilir.

**13-cü prinsip: Qənaətcilik** - dövlət statistika orqanlarında olan ehtiyatlardan səmərəli istifadə olunmalıdır.

**Göstəricilər:**

13.1. Dövlət statistika orqanlarına verilmiş ehtiyatlardan istifadə edilməsinə həm daxili tədbirlərin, həm də kənardan, müstəqil vasitələrin köməyi ilə nəzarət olunur.

13.2. Məlumatların işlənməsi üzrə standart əməliyyatlar (məsələn, məlumatların daxil edilməsi, kodlaşdırılması, məlumatlara nəzarət) maksimum avtomatlaşdırılmışdır.

13.3. İnformasiya-kommunikasiya texnologiyalarının gücü məlumatların yığılması, işlənməsi və yayılması üçün optimaldır.

13.4. Dövlət statistika müşahidələrinin aparılmasına çəkilən xərclərin ixtisara salınması məqsədilə inzibati məlumatlardan maksimum istifadə edilməsi üçün tədbirlər tətbiq olunur.

13.5. Ehtiyatlardan səmərəli istifadə olunması və xərclərin optimallaşdırılması üçün dövlət statistika müşahidələrinin aparılmasının təşkilati-metodoloji yanaşmalarına müntəzəm olaraq yenidən baxış həyata keçirilir.

## III. Statistik məhsullar (Statistik məhsulların istehsalı prinsipləri - Çıxış statistik məlumatları)

İstifadəçilərin sərəncamına verilən statistik məlumatlar onların tələbatlarına cavab verməlidir. Statistik məlumatlar Avropa keyfiyyət standartlarına uyğundur və idarəetmə orqanlarının, tədqiqat idarələrinin, istehsal birliklərinin və ümumilikdə, bütün əhalinin ehtiyaclarına xidmət edir. Buna görə də, statistik məlumatların nə dərəcədə aktual, dəqiq və etibarlı, vaxtında, davamlı, əlaqəli olması və onların ölkə və regionlar üzrə nə dərəcədə müqayisə edilə bilməsi və istifadəçilər tərəfindən nə dərəcədə asanlıqla əldə edilə bilməsi vacibdir.

**14-cü prinsip: Aktuallıq** - statistik məlumatlar istifadəçilərin cari və gələcək tələbatlarını ödəməlidir.

**Göstəricilər:**

14.1. İstifadəçilərlə onların cari tələbatlarının ödənilməsi üçün məsləhətləşmələr aparılır, mövcud statistik məlumatların aktuallığının və praktiki sərfəliliyinin monitorinqi həyata keçirilir, onların gələcək tələbatlarının prioritetləri müəyyənləşdirilir. Statistik məlumatların keyfiyyətinin istifadəçilərin tələbatını ödəməsi səviyyəsi öyrənilir.

14.2. İstifadəçilərin prioritet tələbatları təmin edilir ki, bu da dövlət statistikasının uzunmüddətli inkişaf proqramında əksini tapır.

14.3. Statistik məlumatlarla təmin edilmə səviyyəsinə dair istifadəçilərlə daimi əsasda sorğular aparılır.

**15-ci prinsip: Dəqiqlik və etibarlılıq** - statistik məlumatlar dəqiq və doğru olmalıdır.

**Göstəricilər:**

15.1. İlkin məlumatlar, aralıq nəticələr və çıxış məlumatları mütəmadi olaraq qiymətləndirilir və düzgünlüyü yoxlanılır.

15.2. Seçmə ilə bağlı olan və ya olmayan səhvlər təhlil olunur və müntəzəm olaraq ASS-nin keyfiyyət komponentlərinə uyğun olaraq sənədləşdirilmiş şəkildə qeydə alınır.

15.3. Məlumatlara yenidən baxılmasının nəticələri və düzəlişlər daimi əsasda təhlil edilir və statistik metodların və üsulların yaxşılaşdırılması məqsədilə daxili məlumatlandırma üçün istifadə edilir.

**16-cı prinsip - <u>Vaxtlı-vaxtında olma və tam yerinə yetirmə</u>** - Statistik məlumatlar müəyyən edilmiş dövriliklə vaxtlı-vaxtında yayılır.

**Göstəricilər:**

16.1. Statistik məlumatların yayılması müddəti beynəlxalq standartlara və tələblərə uyğundur.

16.2. Statistik məlumatların yayılması üçün standart müddətlər müəyyənləşdirilmişdir və vaxtında ictimaiyyətə çatdırılır.

16.3. Statistik məlumatların yayılmasının dövriliyi istifadəçilərin tələbatını maksimum nəzərə alır.

16.4. Statistik məlumatların yayılması qrafikindən istənilən kənarlaşma əvvəlcədən elan və izah edilir, məlumatların çap edilməsinin yeni vaxtı müəyyən olunur və nəşr edilir.

16.5. Münasib keyfiyyətli ilkin yekun məlumatlar istifadəçilər üçün faydalı olduqda yayılır.

**17-ci prinsip: <u>Anlaşıqlılıq və aydınlıq</u>** - statistik məlumatlar başa düşülən formada təqdim edilməlidir, istifadə üçün münasib şəkildə yayılmalıdır, bütün istifadəçilər üçün eyni şərtlərlə əldə oluna bilinən olmalıdır və metaməlumatlarla və müvafiq izahlarla müşayiət olunmalıdır.

**Göstəricilər:**

17.1. Statistik məlumatlar və uyğun metaməlumatlar elə formada təqdim edilməlidir və arxivləşdirilməlidir ki, onların düzgün şərh edilməsini və başa düşülən müqayisəsini asanlaşdırmış olsun.

17.2. Məlumatların yayılması üçün dövlət statistika orqanları həm müasir informasiya-kommunikasiya texnologiyalarından və həm də kağız daşıyıcılarından istifadə edirlər.

17.3. İstifadəçilər üçün məlumatların əlverişli formada verilməsinin təhlili aparılır və nəticələr nəşr edilir. Onlar statistik proseslərin, eləcə də inzibati məlumatların istifadəsi haqqında müntəzəm olaraq məlumatlar əldə edirlər.

17.4. Məlumatların kimə aid olduğunun müəyyən edilməsi mümkün olmamaq şərti ilə mikro məlumatlardan elmi məqsədlər üçün istifadə edilməsinə icazə verilir. Həmin məlumatlara giriş dəqiq müəyyən edilmiş üsullara uyğun həyata keçirilir və ciddi şəkildə protokollaşdırılır.

17.5. Metaməlumatlar onların nizamlanmış sisteminə uyğun olaraq sənədləşdirilir.

17.6. İstifadəçilər ASS-nin keyfiyyət meyarlarına uyğun olaraq statistik hesablamaların metodologiyası və statistik məlumatların keyfiyyəti haqqında məlumatlandırılırlar.

**18-ci prinsip: <u>Ardıcıllıq/uyğunluq və qarşılıqlı əlaqə/müqayisəlilik</u>** - statistik məlumatlar ölkə və regionlar üzrə vaxta görə uyğun, müqayisəli olmalıdır. Müxtəlif

mənbələrdən olan həmcins statistik məlumatların birləşdirilməsi və birgə istifadəsi üçün imkan yaradılmalıdır.

**Göstəricilər:**

18.1. Statistik məlumatlar daxili əlaqəliliyə və ardıcıllığa malikdirlər (yəni onlarda hesabi və mühasibat oxşarlığı təmin edilmişdir).

18.2. Statistik məlumatlar vaxtın məhdud müddətində uyğunlaşdırılmışdır və ya müqayisə olunandır.

18.3. Müxtəlif mənbələrdən olan statistik məlumatlar əhatəliliyə, anlayışlara, ölçü vahidlərinə və təsnifatlara dair ümumi standartlar əsasında toplanır.

18. 4. Müxtəlif mənbələrdən və dövrlərdən olan statistik məlumatlar uyğunlaşdırılmışdır və müqayisəlidirlər, onları cəmləmək olar.

18.5. Ölkələr üzrə məlumatların müqayisəliliyi Azərbaycan Respublikasının dövlət statistika orqanları ilə digər ölkələrin statistika xidmətləri arasında müntəzəm məlumat mübadiləsi yolu ilə təmin edilir; metodoloji tədqiqatlar mümkün qədər Avrostatla sıx əməkdaşlıq şəraitində aparılır.